*AMEA Nəsimi adına Dilçilik İnstitutu,*
*Dilçilik araşdırmaları, 2026, №1* ISSN: 2664-
*Səhifə: 151-156*
https://doi.org/10.59849/2664-5432.2026.1.151

**Aliyə QULİYEVA**[*]

# QƏRBİ AZƏRBAYCAN ŞİVƏLƏRİNİN TƏDQİQİ PROFESSOR İBRAHİM BAYRAMOVUN ARAŞDIRMALARINDA

**XÜLASƏ**

Azərbaycan dili şivələrinin tərkib hissəsini təşkl edən Qərbi Azərbaycan şivələrinə indi Ermənistan adlanan ərazisi daxilində yerləşən, azərbaycanlıların tarixi-etnik torpaqları olan Ağbaba, Basarkeçər, Çəmbərək, Karvansaray, Barana, Böyük Qarakilsə, Calaloğlu, Qarakilsə, Kalinino, Qafan, Gorus, Mcğri, Kəvər, Dərələyəz, İrəvan, Vcdi, Zəngibasar, Əştərək, Hamamlı rayonlarının şivələri daxildir. Azərbaycan dialektologiyası milli dilçiliyin ən mühüm sahələrindən biri olmaqla xalqın etnik-mədəni yaddaşının, tarixi inkişaf mərhələlərinin və dil sisteminin öyrənilməsində xüsusi əhəmiyyət daşıyır. Bu baxımdan Qərbi Azərbaycan şivələri Azərbaycan dilinin qədim və zəngin qatlarını özündə qoruyub saxlayan mühüm dil faktları ilə seçilir. Qərbi Azərbaycan ərazisində formalaşmış şivələr həm fonetik, həm leksik, həm də morfoloji xüsusiyyətlərinə görə Azərbaycan dilinin ümumi inkişaf tarixinin müəyyənləşdirilməsində əvəzsiz mənbə hesab olunur.

**Açar sözlər**:*Qərbi Azərbaycan, İbrahim Bayramov, dilçilik, dialektologiya, şivələr*

Filologiya elmləri doktoru, professor İbrahim Bayramovun elmi yaradıcılığı çox şaxəlidir. Prof.İ.Bayramovun elmi-tədqiqatlarını mövzu və istiqamətlərinə görə aşağıdakı kimi qruplaşdırmaq olar:

1.Müasir Azərbaycan dili.
2.Qərbi Azərbaycan onomastikası.
3. Dialektologiya.

Professor İbrahim Bayramovun dialektoloji tədqiqatları elmi yaradıcılığının əsas hissələrini təşkil edir. Məhz bu baxımdan İ.Bayramovun Azərbaycan dialektologiyasının inkişafında mühüm xidmətləri olan alimlərdən biridir. Onun elmi fəaliyyəti əsasən Azərbaycan dili şivələrinin, xüsusilə də Qərbi Azərbaycan şivələrinin sistemli şəkildə öyrənilməsi ilə bağlıdır. “Qərbi Azərbaycan şivələrinin leksikası” kitabında sövet dönəmində Qərbi Azərbaycan şivələrinin öyrənilməsi ilə bağlı göstərir ki, Z.V.Vəliyevin “Basarkeçər rayonu şivələri” (1954), Q.Bağırovun “Ermənistan SSR Sisyan rayonunun Azərbaycan dili şivələri” (1966), F.Babayevin “Ermənistan SSR Masis rayonu şivələri” (1988)

[*] AMEA Nəsimi adına Dilçilik İnstitutu, filologiya üzrə fəlsəfə doktoru.
Email: aliya.musali@yahoo.com

dissertasiyaları, Ə.Əliyevin "Azərbaycan dilinin Meğri şivələri" (2003), H.Mirzəycvin "Dərələyəz mahalının toponimləri və şivə sözləri" (2003), Ş.Kərimovun "Azərbaycan dilinin Çəmbərək və Karvansaray şivələri" (2004), A.Bayramovun "Oğuz elindən - Ozan dilindən" (2000), A.Qurbanovun "Qərbi Azərbaycanın Cucikənd şivəsi" (2007) kitabları, Ə.Ələkbərlinin "Qərbi Azərbaycanın dialektoloji lüğəti", I kitab, İrəvan Çuxuru (Vedibasar, Gərnibasar, Zəngibasar mahalları və İrəvan şəhəri (2009), C.Cəfərovun "Hamamlı kənd şivəsinin lüğətinə dair bəzi qeydləri" (1970) adlı məqaləsi xüsusi elmi əhəmiyyətə malikdir [Bayramov 2011, s. 3]. Bura həmçinin A.Bayramov və A.Bayramovanın "Ağbaba şivəsi sözlüyü" (2014), A.Bayramov və A.Bayramovanın "Azərbaycan dilinin Ağbaba şivəsi" (2020) əsərlərini əlavə etmək olar.

Professor İbrahim Bayramov dialektoloji materialların toplanması, təsnifi, təhlili və elmi dövriyyəyə gətirilməsi istiqamətində mühüm tədqiqatlar aparmış, Qərbi Azərbaycan şivələrinin fonetik, leksik və qrammatik xüsusiyyətlərini geniş şəkildə araşdırmışdır. Onun 2022-ci ildə Türkiyədə çap olunmuş "Azərbaycan dialektologiyası" əsəri (Ankara: İKSAD, 2022, 451 səh.) Azərbaycan dili şivələri ilə bağlı yazılmış fundamental tədqiqatlrdandır. Kitabda Qərbi Azərbaycan şivələrinin öyrənilməsinə xüsusi yer ayrılmışdır [Bayramov 2022, s. 21-44]. Məhz Qərbi Azərbaycan şivələrinin öyrənilməsinin elmi əhəmiyyəti dilçiliyimizdə xüsusi yer tutur.

Professor İbrahim Bayramov Azərbaycan dialektologiyası sahəsində uzun illər sistemli elmi fəaliyyət göstərmiş alimlərdəndir. Onun tədqiqatlarında Qərbi Azərbaycan şivələrinin kompleks şəkildə araşdırılması əsas yer tutur. İ.Bayramov xüsusilə Basarkeçər, Göyçə, Zəngəzur, Dərələyəz, Vedibasar, Ağbaba, Şörəyel və digər bölgələrin şivələrinə dair zəngin material toplamışdır.

Qərbi Azərbaycan şivələri tarixi Azərbaycan torpaqlarında yaşayan əhalinin dil xüsusiyyətlərini əks etdirməklə yanaşı, ümumtürk dil hadisələrinin qorunub saxlanıldığı mühüm dil arealıdır. Bu şivələrdə qədim türk dillərinə məxsus arxaik elementlər, qədim fonetik xüsusiyyətlər və zəngin etnoqrafik leksika mühafizə olunmuşdur.

Prof. İ.Bayramov E.Əzizova istinad edərək yazır ki, E.Əzizov haqlı olaraq Azərbaycan dili şivələrinin təsnifatını təkcə Azərbaycan Respublikası daxillində olan şivələrlə məhdudlaşdırmır. Azərbaycan dili şivələrinə həm Azərbaycan, həm Cənubi Azərbaycan, həm Dağıstan (Dərbənd-Tabasaran), həm Gürcüstan (Borçalı), həm də Qərbi Azərbaycan (Göyçə, Zəngəzur, Dərələyəz, Vedibasar, Zəngibasar, Pəmbək, Loru) şivələrini də daxil edir. Azərbaycandan kənarda yaşamış azərbaycanlıların şivələrinin Azərbaycan dili şivələrindən kənarda qalması dialektoloji tədqiqatların birtərəfli aparılması kimi qiymətləndirilə bilər [Bayramov 2022, s. 34].

Prof. İ.Bayramov Azərbaycan dilçiliyində ilk dəfə Qərbi Azərbaycan şivələrininin Azərbaycan dili şivələri içərisində yerini müəyyənləşdirmiş və Qərbi Azərbaycan şivələrini elmi prinsip əsasında təsnif edərək aşağıdakı kimi qruplaşdırmışdır:

**1. Qərb şivələri.** Bu şivələrə Çəmbərək, Karvansaray,Basarkeçər, Böyük Qarakilsə, Dağ Borçalısı (Calaloğlu, Kalinino), Ağbaba, Quqark rayon ərazisinin şivələri daxildir.

**2. Cənub şivələri**. Bu qrup Dərələyəz, İrəvan, Zəngibasar,Vedibasar, Qarakilsə, Meğri, Qafan rayonu şivələrini əhatə edir [Bayramov 2011, s.22].

Qərbi Azərbaycan şivələrinin tədqiqi aşağıdakı istiqamətlərdə mühüm elmi əhəmiyyət daşıyır:

Azərbaycan dilinin tarixi inkişaf mərhələlərinin müəyyənləşdirilməsi;

qədim türk dil elementlərinin öyrənilməsi;

Azərbaycan xalqının etnik tarixinin araşdırılması;

toponim və etnonimlərin mənşəyinin müəyyənləşdirilməsi;

dialektlərarası əlaqələrin araşdırılması;

ədəbi dil ilə şivələr arasındakı münasibətlərin müəyyənləşdirilməsi.

Professor İbrahim Bayramov bu istiqamətlərin hər birində mühüm elmi nəticələr əldə etmişdir. Onun tədqiqatlarında diqqəti cəlb edən əsas xüsusiyyətlər bunlardır:

– canlı danışıq dilinə əsaslanması;
– dialekt faktlarının müqayisəli təhlili;
– tarixi-müqayisəli metoddan istifadə;
– fonetik və leksik xüsusiyyətlərin sistemli şəkildə təqdim edilməsi;
– şivə materiallarının folklor nümunələri ilə əlaqəli araşdırılması.

Alim yalnız nəzəri məsələlərlə kifayətlənməmiş, ekspedisiya materialları əsasında zəngin dialektoloji baza yaratmışdır. Bu materiallar Azərbaycan dialektologiyası üçün mühüm mənbə hesab edilir. İbrahim Bayramov Qərbi Azərbaycan şivələrinin fonetik sistemini ətraflı şəkildə araşdırmışdır. Zəngin dil faktları əsasında Azərbaycan dilinin qədim fonetik xüsusiyyətlərinin daha canlı şəkildə qorunduğunu nümunələrlə izah edir.

Tədqiqatlarda aşağıdakı fonetik hadisələr geniş şəkildə izah olunur:

– saitlərin uzanması;
– ahəng qanununun spesifik formaları;
– qədim samitlərin mühafizəsi;
– səsəvəzlənmə hadisələri;
– proteza və epenteza halları;
– vurğu xüsusiyyətləri.

Məsələn, bəzi Qərbi Azərbaycan şivələrində qədim türk dillərində müşahidə olunan “g-q” və “k-x” keçidləri, eləcə də “d-y” əvəzlənmələri qorunub

saxlanmışdır. Professor İbrahim Bayramov bu xüsusiyyətləri digər türk dilləri ilə müqayisə edərək onların tarixi xarakterini əsaslandırmışdır.

Prof.İ.Bayramov fonetik xüsusiyyətlərin coğrafi yayılma arealını da müəyyənləşdirmiş, şivələr arasındakı fərqli və oxşar cəhətləri sistemləşdirmişdir. Onun tədqiqatlarında Qərbi Azərbaycan şivələrinin leksik tərkibi xüsusi yer tutur. 2011-ci ildə çap olunmuş "Qərbi Azərbaycan şivələrinin leksikası" əsəri bu baxımdan xüsusi elmi əhəmiyyət kəsb edir. Qərbi Azərbaycan şivələrində işlənən qədim türk mənşəli sözlərin, məişət leksikasının, təsərrüfat terminlərinin və etnoqrafik vahidlərin toplanmasına xüsusi diqqət yetirərək Azərbaycan dilinin digər şivələri ilə, eləcə də qədim dilimizlə müqayisələr aparmışdır. Bu şivələrdə aşağıdakı leksik qruplar daha zəngin şəkildə müşahidə olunur: *maldarlıq terminləri; əkinçilik leksikası; qohumluq bildirən sözlər; məişət əşyalarının adları; mərasim və folklor terminləri; qədim türk mənşəli arxaik sözlər*.

Professor İbrahim Bayramov Qərbi Azərbaycan şivələrinin qrammatik quruluşunu da ətraflı şəkildə araşdırmışdır. Tədqiqatlarda aşağıdakı xüsusiyyətlər qeyd edilir:

-qədim şəkilçi formalarının qorunması;
-xəbərlik kateqoriyasının spesifik variantları;
-feilin zaman formalarının fərqli işlənməsi;
-qoşma və bağlayıcıların dialekt xüsusiyyətləri;
-sadə və mürəkkəb cümlələrin şivə xüsusiyyətləri.

Məsələn, bəzi şivələrdə "alırsanmı" əvəzinə "alıraŋmı" (Çəmbərək), "almışam" əvəzinə "almışağ" (Hamamlı) kimi formaların işlənməsi morfoloji fərqlərin göstəricisi kimi diqqəti cəlb edir. Professor İbrahim Bayramov bu xüsusiyyətlərin Azərbaycan dilinin tarixi qrammatikasının öyrənilməsi baxımından mühüm əhəmiyyət daşıdığını vurğulamışdır. Alim şivələrin folklor materialları ilə birlikdə öyrənilməsini vacib hesab edir. Bir tədqiqatçı olaraq İ.Bayramova görə, folklor nümunələri dialekt xüsusiyyətlərinin təbii şəkildə qorunduğu əsas mənbələrdəndir. Tədqiqatçı bayatıları, atalar sözlərini, mərasim nəğmələrini, aşıq yaradıcılığı nümunələrini, xalq danışıq örnəklərini dialektoloji material kimi geniş şəkildə istifadə etmişdir. Folklor nümunələrinin araşdırılması nəticəsində Qərbi Azərbaycan şivələrinin emosional-ekspressiv imkanları, obrazlı ifadə vasitələri və milli-mədəni xüsusiyyətləri daha dolğun şəkildə müəyyənləşdirilmişdir. Məsələn: Sağ vaxtı nə idi, *sayru* vaxtı nə ola (Atalar sözü, Çəmbərək),

Eləmi anası var
Qurulmuş xanası var.
İstərəm ora *varam,*
Bir zalım anası var [Bayatı, 2000, s. 15]

Şifahi xalq ədəbiyyatı nümunələri ilə dilimizin tarixinin müqayisəli şəkildə araşdırılmasının elmi əsaslara malik olduğu faktlar əsasında müəyyənləş-

dirməyin yolunu göstərir. Məsələn, Meğri şivəsində işlənən *bayınmax* sözü “Kitabi-Dədə Qorqud” dastanında işlənir.

Professor İbrahim Bayramov Azərbaycan dialektologiyası məktəbinin inkişafında mühüm rol oynamışdır. Onun elmi fəaliyyəti aşağıdakı istiqamətlərdə xüsusi əhəmiyyət kəsb edir:

- Qərbi Azərbaycan şivələrinin sistemli tədqiqi;
- dialektoloji materialların toplanması və qorunması;
- gənc dialektoloqların yetişdirilməsi;
- Azərbaycan dil tarixinin araşdırılmasına töhfə;
- ümumtürk dil əlaqələrinin öyrənilməsi.

İ.Bayramovun əsərləri bu gün də Azərbaycan dialektologiyası üçün mühüm elmi mənbə hesab olunur. Xüsusilə Qərbi Azərbaycanla bağlı tarixi yaddaşın qorunması baxımından onun tədqiqatları böyük əhəmiyyət daşıyır.O, ilk dəfə Zəngəzur şivələrini elmi dövriyyəyə daxil etmişdir ki, bu da dilçiliyimizdə tamamilə yeni elmi baxışdır. İ.Bayramov 1964-cü ildə çap olunmuş “Azərbaycan dilinin dialektoloji lüğəti”ndə, 2007-ci ildə çap olunmuş “Azərbaycan dilinin dialektoloji lüğəti”ndə Zəngəzur şivəsi adı altında ayrıca material verildiyini konkret nümunələrlə aydınlaşdırır ki, bura həmçinin Qərbi Azərbaycanın Qafan, Gorus, Sisyan və Meğri şivələri də daxil dir. Bu barədə müəllif 2022-ci ildə Ankarada çap edilmiş “Azərbaycan dialektologiyası” əsərində bəhs olunur [Bayramov 2022, s. 36-38]. Məhz onun apardığı tədqiqatlar nəticəsində Qərbi Zəngəzur şivələrinin fonetik, leksik və qrammatik xüsusiyyətləri sistemli şəkildə araşdırılmış, zəngin dialektoloji material elmi dövriyyəyə daxil edilmişdir. Alimin araşdırmaları bu şivələrin fonetik, leksik və qrammatik xüsusiyyətlərinin sistemli şəkildə öyrənilməsinə, Azərbaycan dil tarixinin və ümumtürk dil əlaqələrinin araşdırılmasına mühüm töhfə vermişdir.

## ƏDƏBİYYAT

1. Bayramov, İ. (2011). *Qərbi Azərbaycan şivələrinin leksikası*. Bakı: Elm və təhsil.
2. Bayramov, İ. (2022). *Azərbaycan dialektologiyası*. Ankara: İKSAD.
3. Bayramov, İ., & Bədəlova, A. (2020). *Türk dillərinin müqayisəsi (şivə və ədəbi dil materialları əsasında)*. Bakı: ADPU.
4. Bayramov, A. Ə., & Bayramova, A. A. (2020). *Azərbaycan dilinin Ağbaba şivəsi*. Bakı: Elm və təhsil.
5. Bədəlova, A. (2022). *Qərbi Azərbaycan şivələri lüğəti*. Bakı: ADPU.
6. Ələkbərli, Ə. (2009). *Qərbi Azərbaycan dialektoloji lüğəti* (I kitab). Bakı: Ağrıdağ.
7. Hüseynova, M. (2020). *Ümumtürk dilləri dialekt və şivələrinin qarşılıqlı inteqrasiyası*. Bakı: ADPU.
8. Mirzəyev, H. *Dərələyəz mahalının toponimləri və şivə sözləri*. Bakı: Ağrıdağ.
9. Karaman, E. (2011). *Ermenistan Türklerinin ağızları*. Ankara.

## RESEARCH ON THE DIALECTS OF WESTERN AZERBAIJAN IN THE SCHOLARSHIP OF PROFESSOR IBRAHIM BAYRAMOV

**ABSTRACT**

The dialects of Western Azerbaijan, which constitute an integral part of Azerbaijani dialects, include the dialects of Ağbaba, Basarkeçər, Çəmbərək, Karvansaray, Barana, Böyük Qarakilsə, Calaloğlu, Qarakilsə, Kalinino, Qafan, Gorus, Meghri, Kəvər, Dərələyəz, Iravan, Vedibasar, Zəngibasar, Əştərək, and Hamamlı regions located within the territory currently called Armenia, historically inhabited by Azerbaijanis. Azerbaijani dialectology, as one of the major branches of national linguistics, plays a significant role in the study of ethnic-cultural memory, historical development stages, and the linguistic system of the people. In this regard, the dialects of Western Azerbaijan preserve important linguistic facts reflecting the ancient and rich layers of the Azerbaijani language.

**Keywords:** *Western Azerbaijan, Ibrahim Bayramov, linguistics, dialectology, dialects*

## ИССЛЕДОВАНИЕ ДИАЛЕКТОВ ЗАПАДНОГО АЗЕРБАЙДЖАНА В ТРУДАХ ПРОФЕССОРА ИБРАГИМА БАЙРАМОВА

Диалекты Западного Азербайджана, являющиеся неотъемлемой частью азербайджанских диалектов, включают говоры Агбаба, Басаркечара, Чамбарака, Каравансарая, Бараны, Большой Каракилисы, Джалалоглу, Каракилисы, Калинино, Кафана, Гориса, Мегри, Кявара, Даралаяза, Иревана, Ведибасара, Зангибасара, Аштарака и Гамамлы, расположенных на территории, которая в настоящее время называется Арменией и исторически была населена азербайджанцами. Азербайджанская диалектология, являясь одной из важнейших отраслей национального языкознания, играет значительную роль в изучении этнокультурной памяти народа, этапов его исторического развития и языковой системы. В этом отношении диалекты Западного Азербайджана сохраняют важные языковые факты, отражающие древние и богатые пласты азербайджанского языка.

**Ключевые слова**: *Западный Азербайджан; Ибрагим Байрамов; языкознание; диалектология; диалекты.*